# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 354** QƏRAR **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

## "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084, № 12, maddə 1566; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 275 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ", dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı" üzrə:

2.1. adında "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ", dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar" sözləri ilə əvəz edilsin;

2.2. 3-cü hissəyə aşağıdakı məzmunda əlli dördüncü abzas əlavə edilsin:

"3-53/ Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi";

2.3. aşağıdakı məzmunda 19-cu hissə əlavə edilsin:

**"19. Komissiyalar**

19-1/ Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası

19-2/ Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası

19-3/ Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası

19-4/ İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası".

2.4. "Qeydlər"in 1-ci abzasında "dövlət orqanına (qurumuna)" sözləri "Azərbaycan Respublikasının dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə və dövlət adından yaradılan publik hüquqi şəxslərə və komissiyalara (bundan sonra- dövlət orqanı (qurumu)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan. - 2023.- 5 oktyabr.- S.2.